

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 235 (24.372)

*19 dekabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının altıncı iclası keçirilib



Dekabrın 18-də Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının altıncı iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi
2. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş)
3. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş)

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti 12 dekabr 2023-cü il tarixdə "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihəsini Ali Məclisə təqdim edib. Layihədə işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin xərclər istiqamətində özünüməşğulluq tədbirlərinin təşkili üzrə nəzərdə tutulmuş vəsaitdə qənaət olunmuş 80 min manatın yaranmış ehtiyaca uyğun olaraq işsizliyə görə sığorta ödənişləri üzrə vəsaitə əlavə edilməsi təklif olunmaqdadır. Layihənin qəbul edilməsi ilə işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsində işsizliyə görə sığorta ödənişləri üzrə vəsait 90 min manatdan 170 min manata artırılacaq, özünüməşğulluq tədbirlərinin təşkili üzrə vəsait isə 1 milyon 480 min manatdan 1 milyon 400 min manata azaldılacaqdır.

Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov məlumat verərək bildirib ki, işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsində işsizlikdən sığorta ödənişləri üzrə 90 min manat vəsait nəzərdə tutulub. Cari ildən başlanılaraq muxtar respublikada ilk dəfə olaraq işsizlikdən sığorta müavinətinin ödənilməsi və proqnoz zamanı nəzərə alınmamış bəzi müəssisə və təşkilatların ləğvi ilə bağlı ixtisar olunmuş və hüquqi statusa malik olan işçilərin sayının artması ilə əlaqədar olaraq cari ildə ödənişlərin həyata keçirilməsi üçün əlavə 80 min manat vəsaitə ehtiyac yaranıb. İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsində özünüməşğulluq tədbirlərinin təşkili üzrə 1 milyon 480 min manat vəsait nəzərdə tutulub. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasına uyğun olaraq özünüməşğulluq proqramı çərçivəsində min nəfər müvafiq kateqoriyadan olan işsiz şəxsin proqrama cəlb olunaraq aktivlərlə təmin olunması nəzərdə tutulub ki, həmin aktivlərin maliyyələşməsi Azərbaycan Respublikasının İşsizlikdən Sığorta Fondunun vəsaitləri hesabına həyata keçiriləcəkdir. Bununla əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikasının İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsində özünüməşğulluq tədbirlərinin təşkili üzrə nəzərdə tutulmuş vəsaitdə qənaət mövcud olub. Qeyd olunanlarla əlaqədar işsizlikdən sığorta ödənişləri üzrə yaranmış kəsir vəsaitin ödənilməsi üçün özünüməşğulluq tədbirlərinin təşkili üzrə qənaət olunmuş vəsaitdən 80 min manat azaldılaraq işsizlikdən sığorta ödənişləri üzrə nəzərdə tutulmuş vəsaitin üzərinə əlavə olunmasına ehtiyac vardır.





Anar İbrahimov gələcəkdə büdcənin proqnoz göstəricilərinə daha diqqətlə yanaşılmasının önəmini vurğulayıb.

İclasda Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova qanun layihəsi barədə təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.5-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclis qanunun qəbul edilməsi ilə bağlı qərar qəbul edir.

Qanun səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ – "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti 2023-cü il 12 dekabr tarixli məktubla "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanun layihəsini Ali Məclisə təqdim edib. Qanun layihəsi deputatlara təqdim olunub. Bundan başqa, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanun layihəsi Ali Məclisin Sosial siyasət komitəsində muxtar respublikanın aidiyyəti dövlət orqanlarının nümayəndələrinin və digər rəsmi şəxslərin iştirakı ilə 14 dekabr 2023-cü il tarixdə müzakirə olunub. Aparılmış müzakirələrdən sonra qanun layihəsinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasına təqdim olunması qərara alınıb.



Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov İşsizlikdən sığorta fondunun 2024-cü il üzrə gəlir və xərcləri barədə bildirib ki, büdcədən maliyyələşən təşkilatlar üzrə 1 milyon 380 min manat, büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə 1 milyon 380 min manat, qeyri-büdcə sektoru üzrə 850 min manat, sair gəlir üzrə 2 min manat və 2023-cü ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti üzrə 2 milyon 506 min 319 manat olmaqla, ümumilikdə, İşsizlikdən sığorta fondunun 2024-cü il üzrə gəlirləri 6 milyon 118 min 319 manat məbləğində proqnozlaşdırılır. İşsizlikdən sığorta fondunun 2024-cü il üzrə xərcləri barədə qeyd olunub ki, işsizliyə görə sığorta ödənişləri üzrə 2024-cü ildə 300 min manat vəsait xərclənməsi nəzərdə tutulur. Peşə hazırlığı və əlavə təhsilin təşkili üzrə növbəti ildə 727 min manat vəsait xərclənməsi nəzərdə tutulur ki, Peşə Hazırlığı Mərkəzinin saxlanma xərcləri, habelə adambaşına maliyyələşmə qaydaları ilə peşə hazırlığının təşkili artımla nəticələnir. Əmək yarmarkalarının təşkili və peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi üzrə növbəti ildə 100 min manat vəsait xərclənməsi nəzərdə tutulur ki, 2024-cü ildə əmək yarmarkalarının sayının artması və əhatəsinin genişləndirilməsi, onların daha effektiv nəticələrinin əldə edilməsi üçün geniş tədbirlər planının formalaşması artıma səbəb olur.

Ceyhun Cəlilov bildirib ki, haqqıödənilən ictimai işlərin təşkili üzrə növbəti ildə 400 min manat vəsait xərclənməsi nəzərdə tutulur ki, azalmanın əsas səbəbi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası üçün zəruri olan haqqıödənilən ictimai işlər üzrə 1000 kvota yerin ayrılmasıdır. Özünüməşğulluq tədbirlərinin təşkili üzrə növbəti ildə 683 min manat vəsait xərclənməsi nəzərdə tutulur ki, azalmanın əsas səbəbi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası üçün 1000 aktivin verilməsidir. Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi üzrə növbəti ildə 150 min manat vəsait xərclənməsinin nəzərdə tutulduğunu bildirən nazir bu istiqamət üzrə fəaliyyətin muxtar respublikada yenilik təşkil etdiyini deyib. Qeyd olunub ki, cari ildə bu istiqamətdə işlər fundamental məsələlərin həllinə kökləndiyindən praktiki işlərin icrası növbəti ildə icra ediləcək. Növbəti ildə proqnoz cari illə eyni saxlanılır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi aparatının və onun yerli orqanlarının, habelə tabeliyindəki digər qurumların saxlanılması xərcləri üzrə 2024-cü ildə 3 milyon 758 min 319 manat vəsait xərclənməsi nəzərdə tutulur ki, artımın əsas səbəbi cari ilin avqustun 1-dən əməkhaqqının artması, habelə maddi texniki bazanın möhkəmləndirilməsi və Naxçıvanda DOST İş Mərkəzinin yaradılmasıdır.







Ali Məclisin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova qanun layihəsi barədə təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir, söylənilmiş təkliflər və iradlar nəzərə

*Ardı 2-ci səhifədə*

alınmaqla onun üzərində iş davam etdirilir.

Qanun layihəsi səsə qoyularaq söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla birinci oxunuşda protokol qaydasında qəbul edilib.

Daha sonra Ali Məclis sədrinin müavini gündəlikdə duran üçüncü məsələ ilə bağlı bildirib ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 8 dekabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 18-ci və 19-cu maddələrinə uyğun olaraq birinci oxunuşda müzakirə edilib, söylənilmiş təkliflər və iradlar nəzərə alınaraq onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunub. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti verilmiş təkliflərə Ali Məclisin müvafiq komitəsi ilə birlikdə baxaraq 12 dekabr 2023-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin yenilənmiş variantını Ali Məclisə təqdim edib. Bundan sonra layihə İqtisadi siyasət komitəsində müzakirə edilərək ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar İqtisadi siyasət komitəsinin sədri İsa İsayev çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin 13 dekabr tarixində keçirilən növbəti iclası haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, iclasda Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini tərəfindən "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsində büdcə gəlirlərinin mədaxil mənbələri üzrə səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividentlərin, büdcə xərclərinin istiqamətləri üzrə isə seçkilərin keçirilməsi və məhkəmə qərarlarının icrası üzrə xərclərin göstərilməsi Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin dürüstləşdirilməsi zamanı nəzərə alınacağı bildirilib.





Anar İbrahimov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda əsas kimi qəbul edilib.

Sonra qanunun maddə-maddə müzakirəsinə başlanılıb. Naxçıvan Muxtar Respublikasının maliyyə nazirinin müavini Həsən İsmayılov "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini gəlir və xərc istiqamətləri üzrə maddələrlə diqqətə çatdırıb.

Deputat Aidə Cəlilzadə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin 4-cü maddəsinin funksional təsnifatı üzrə 4.3.5-ci köməkçi bölməsində ali təhsil müəssisələri və dövlət təşkilatlarının əvvəlcədən planlaşdırılmamış və birgə keçirilən tədbirləri üçün əlavə vəsaitin nəzərdə tutulub-tutulmadığı ilə bağlı sual ünvanlayıb.

Həsən İsmayılov bildirib ki, bu bölmədə ali təhsil müəssisələri üzrə xərclər əhatə olunmayıb. Ümumilikdə, Azərbaycan Respublikasında təhsil müəssisələrinin saxlanması həm ödənişli, eyni zamanda dövlət sifarişi əsasında ödənilən təhsil haqları hesabına formalaşdırılır. Qeyd olunub ki, Naxçıvan Dövlət Universitetinin və muxtar respublikadakı digər ali təhsil müəssisələrinin hesablarında kifayət qədər vəsait var ki, həmin vəsaitlər hesabına tədbirlərin maliyyələşdirilməsi mümkündür. 4.3.5-ci köməkçi bölmədə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin yanında Maliyyə Tədris Mərkəzi, Təhsil Nazirliyinin məktəbdənkənar təhsil müəssisələri, mərkəzləşdirilmiş mühasibatlıqları, metodkabinələri, təhsilin dövlət proqramları, dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qrupların açılması, Mədəniyyət Nazirliyinin musiqi məktəblərinin xərcləri əhatə olunub.

İclasda vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.4-cü və 20.5-ci maddələrinə əsasən müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilir. Qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün aparıcı komitəyə qaytarılır ki, bunlar nəzərə alınaraq üçüncü oxunuşa verilə bilər.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırdı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

## "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

"İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 3-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-ci maddədə "90 000,0" rəqəmləri "170 000,0" rəqəmləri ilə əvəz edilsin.
2. 3.5-ci maddədə "1 480 000,0" rəqəmləri "1 400 000,0" rəqəmləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 18 dekabr 2023-cü il*

---

## Akademik Ziya Bünyadovun 100 illiyi qeyd edilib



AMEA Naxçıvan Bölməsində AMEA-nın həqiqi üzvü, görkəmli tarixçi və şərqşünas alim, ictimai xadim, tarix elmləri doktoru, professor, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun anadan olmasının 100 illiyi münasibətilə tədbir olub. Tədbir Azərbaycan Respublikası Prezidentinin "Akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" 28 sentyabr 2023-cü il tarixli Sərəncamına uyğun olaraq keçirilib.

Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Ziya Bünyadovun keşməkeşli həyatının, elmi və ictimai-siyasi fəaliyyətinin mühüm əhəmiyyət kəsb edən mərhələləri barədə danışıb, akademiki qətiyyəti, obyektivliyi, cəsarəti və başqa insani keyfiyyətləri ilə fərqlənən vətənpərvər kimi səciyyələndirib.

Vurğulanıb ki, ömrünə çoxsaylı mühüm hadisələri sığışdıran alim Azərbaycan EA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru kimi məsul vəzifələrin öhdəsindən uğurla gəlmiş, 1992-ci ildə Ulu Öndər Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı üçün müraciət edən 91 nəfər ziyalıdan biri olmuşdur. O, Yeni Azərbaycan Partiyası sədrinin müavini, Milli Məclisin deputatı və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuşdur.

Təsadüfi deyil ki, Ümummilli Lider alimin elmi və ictimai irsini yüksək qiymətləndirmiş, 31 yanvar 1998-ci ildə "Z.M.Bünyadovun xatirəsinin əbədiləşdirilməsi haqqında" Sərəncam imzalamışdır.

Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun icraçı direktoru, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Ziya Bünyadovun həyatı və elmi yaradıcılığı" mövzusunda məruzəsi dinlənib, institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev akademik haqqında çıxış edib.

Çıxışlarda Ziya Bünyadovun həyatının və elmi fəaliyyətinin əsas dövrlərindən, fundamentallığı ilə seçilən elmi irsindən, tərcüməçilik fəaliyyətindən bəhs olunub. Onun hələ SSRİ dönəmində tarixi Azərbaycan torpaqlarının XIX əsrdə Rusiya tərəfindən işğalını faktlarla sübuta yetirməsindən, aparılan saxta təbliğata qarşı çıxmasından, tarixmizi özününküləşdirməyə çalışan ermənilərə qarşı tutduğu kəskin mövqeyindən bəhs olunub. Alimin türk, rus, ərəb və fars dillərindən etdiyi tərcümələrinin əhəmiyyətindən danışan tədqiqatçılar bildiriblər ki, Ziya Bünyadovun əsərlərinə bu gün də etibarlı mənbə kimi istinad olunur.

Çıxışlardan sonra tədbir iştirakçılarının sualları cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

---

## Səhiyyə Nazirliyinin veb-saytı yenilənib



Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mühəndis-proqramçıları tərəfindən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin rəsmi internet saytı müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi məqsədilə yenilənib.

Veb-sayt (*www.nsehiyye.gov.az*) həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılıb, yeni bölmələr əlavə edilib.

İstifadəçi rahatlığını nəzərə alaraq müxtəlif cihazların ekran ölçülərinə uyğun və innovativ yeniliklər əsasında hazırlanan sayt dizayn, quruluş və məzmun baxımından da istifadəçilər üçün əlçatan olması ilə fərqlənir.

Yenilənmiş informasiya resursu müvafiq qaydada təhlükəsizlik tədbirləri aparıldıqdan sonra AzStateNet şəbəkəsində yerləşdirilib. Saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə *"gov.az"* domeninə bağlı e-poçt adresi ilə təmin olunub.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən dövlət orqanlarında rəqəmsallaşdırma istiqamətində görülən zəruri tədbirlər davam etdirilir. Cari ilin ötən dövründə 29 qurumun veb-saytı yenilənməklə AzStateNet şəbəkəsinə köçürülüb.

---

## Abonentlərin internetə çıxış imkanları çoxalıb

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən rayon, şəhər və kəndlərdə telekommunikasiya sistemlərinin qurulması, əhalinin dayanıqlı rabitə və yüksəksürətli internet xidmətləri ilə təmin olunması istiqamətində zəruri işlər həyata keçirilir. Genişzolaqlı internet şəbəkəsini genişləndirmək üçün Avtomat Telefon stansiyalarında internet tutumları tələbata uyğun olaraq artırılır.

Həyata keçirilən tədbirlərin davamı olaraq genişzolaqlı internetə olan tələbatın ödənilməsi məqsədilə Kəngərli rayonunun Xok kəndində istismarda olan Avtomat Telefon Stansiyasının internet tutumu artırılıb. Bunun nəticəsində 100-dən artıq müraciət edən abonentin tələbatının ödənilməsinə şərait yaradılıb. Bunlarla yanaşı, mövcud Avtomat Telefon Stansiyasının optik arabağlantılarla Mərkəzi Avtomat Telefon Stansiyasına qoşulması təmin olunub. Bu da abonentlərin keyfiyyətli rabitə və internet xidmətlərindən yararlanmalarına şərait yaradacaqdır.

Qeyd edək ki, cari ilin müvafiq dövründə xidmətlərin keyfiyyətinin artırılması məqsədilə Kəngərli rayonunun Xok kəndində Avtomat Telefon Stansiyası NGN texnologiyası əsasında yenidən qurulub. Avtomat Telefon Stansiyasında aparılan yenilənmə işləri ilə əlaqədar olaraq nazirlik tərəfindən internetdən istifadənin müddəti ödənişsiz olaraq 10 günədək uzadılıb.

Digər bölgələrdə də abonentləri yüksəksürətli, genişzolaqlı xidmətlərlə təmin etmək üçün mövcud şəbəkə tutumlarının genişləndirilməsi nəzərdə tutulur.

*Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidməti*

---

## Naxçıvanda ilin əvvəlindən 11.821 "Asan imza" sertifikatı verilib

2023-cü ilin yanvar-noyabr ayları ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin vergiödəyicilərinə xidmət strukturlarında, ümumilikdə, 34.346 şəxs qəbul edilib. Xidmət strukturları tərəfindən vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələr, cari vergi ödəmələri və s. məsələlərlə bağlı 46.836 sayda xidmət göstərilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,8 dəfə çoxdur.

Yanvar-noyabr ayları ərzində vergiödəyicilərinə 114.882 məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib. Dövr ərzində vergiödəyiciləri ilə 52 görüş keçirilib, 319 sayda ünvanlı xidmət göstərilib. İlin əvvəlindən 6.618 müraciət üzrə 11.821 "Asan imza" sertifikatı verilib.

Bu ilin may ayında istifadəyə verilmiş Naxçıvan Şəhər Vergilər İdarəsinin Vergiödəyicilərinə xidmət mərkəzi tərəfindən dekabrın 1-dək, ümumilikdə, 12.047 şəxs qəbul edilib və onlara 17.497 sayda xidmət göstərilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə göstərilən xidmətlərin sayından 3 dəfə çoxdur.

---

## Vergi daxilolmaları 29 faiz artıb

Naxçıvan Muxtar Respublikasında vergi daxilolmalarında müsbət dinamika davam edir. 2023-cü ilin 11 ayında Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin xəttilə büdcəyə 150,4 milyon manatdan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 29 faiz və ya 34,1 milyon manat çoxdur. Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində qeydiyyatda olan vergiödəyiciləri üzrə vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 36 faiz və ya 38,6 milyon manat artıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti*

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



Rubrikamızın budəfəki qonağı Özbəkistan Respublikasındakı Azərbaycan Səfirliyinin nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin direktoru, həmçinin Azərbaycanın Özbəkistandakı Səfirliyinin mədəniyyət, turizm, təhsil və diaspor məsələləri üzrə birinci katibi ***Samir Abbasov***dur.

Həmsöhbətim deyir ki, xarici ölkələrdə Azərbaycan Mədəniyyət mərkəzlərinin yaradılması ölkəmizin tanıdılması, milli mədəniyyətimizin təbliği, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, qarşı tərəflə dostluq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində mühüm imkanlar açır.

Belə mərkəzlərdən biri də Mərkəzi Asiyanın köklü tarixə, mədəniyyətə malik böyük dövləti olan Özbəkistanda yaradılmışdır. Samir Abbasov mərkəzin 2010-cu ildən fəaliyyət göstərdiyini bildirərək qeyd etdi ki, Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənd şəhərində azərbaycanlıların kompakt yaşadığı Mirabad rayonunun Heydər Əliyev küçəsində yerləşir. Mərkəz Özbəkistanda öz fəallığı ilə seçilir və dəfələrlə digər ölkələrin təmsilçiləri arasında keçirilən böyük müsabiqələrdə “İlin ən fəal Mədəniyyət Mərkəzi” adına layiq görülüb.

Ötən müddət ərzində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin həyata keçirdiyi tədbirlər nəticəsində Özbəkistanda Azərbaycan mədəniyyəti, ədəbiyyatı, turizmin təbliği genişlənmiş, dəfələrlə yüksək səviyyəli tədbirlər təşkil edilmiş və Özbəkistanda Azərbaycan mədəniyyətinə maraq xeyli artmışdır. Yerli təşkilatlar və qurumlarla əməkdaşlıq əlaqələri möhkəmləndirilmiş, iki ölkə arasındakı dostluq və mədəni əməkdaşlıq genişləndirilmişdir.

## Azərbaycan mədəniyyət mərkəzləri milli həmrəyliyimizin güclənməsinə öz töhfəsini verir



Bununla yanaşı, *“Wikipedia.org”* Beynəlxalq Elektron Ensiklopediyasında özbək dilində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, Azərbaycan Prezidenti cənab İlham Əliyev, Qarabağın tarixi, Azərbaycan ədəbiyyatı, turizmi, şəhərləri haqqında çoxsaylı bölmələr yaradılıb və hazırda bu iş uğurla davam etdirilir.

Azərbaycan Mədəniyyət Mərkəzi, həmçinin ötən il ərzində Özbəkistanda Azərbaycan tarixi, dövlətçiliyi, mədəniyyəti, ədəbiyyatı, klassiklərinin əsərlərinin özbək dilinə tərcüməsini həyata keçirib və Daşkənddə Azərbaycana dair 100-dən çox adda kitablar işıq üzü görüb. O cümlədən Mədəniyyət Mərkəzinin layihəsi ilə “Nizami Gəncəvi İli” çərçivəsində ilk dəfə olaraq dahi şairin “Xəmsə”si özbək dilinə tərcümə olunub, hər iki ölkənin Dilçilik institutlarının iştirakı ilə “Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca” lüğəti və danışıq kitabı hazırlanaraq çap edilib. Mərkəz Özbəkistanın aparıcı kitabxanalarına Azərbaycana dair minlərlə nəşr hədiyyə edərək Azərbaycan fondları, bölmələri yaradıb.

Özbəkistanda diaspor quruculuğu sahəsində görülən işlərə toxunan Samir Abbasov bildirdi ki, hazırda bu ölkədə 40 minə yaxın azərbaycanlı yaşayır. Bu azərbaycanlıların ölkəmizin tarixi, mədəniyyəti, xalqımızın həmrəyliyi ilə bağlı görüş və tədbirlərdə, habelə yaşadığı ölkənin ictimai həyatında aktiv iştirakı mərkəz üçün əsas məsələlərdəndir.



Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzi 44 günlük Vətən müharibəsində Azərbaycan həqiqətlərinin bu ölkədə doğru təbliğ olunmasında yaxından iştirak etdi. Hazırda da təmsil olunduğumuz mərkəz burada yaşayan hər bir azərbaycanlı üçün müqəddəs məkandır. Mərkəzin layihəsi ilə Özbəkistanda yaşayıb-yaratmış tanınmış azərbaycanlıların xatirəsi əbədiləşdirilib, onların yaşadıqları evlərin üzərində barelyeflər vurulub, fərdi sərgiləri, yaradıcılıqlarına dair tədbirlər və çoxsaylı layihələr reallaşdırılıb.

Mərkəz Özbəkistan Kinematoqrafiya Agentliyi ilə birlikdə “Özbək ədəbiyyatının Şekspiri” adlanan, dramaturq, tanınmış azərbaycanlı Maqsud Şeyxzadənin həyatı və yaradıcılığına dair sənədli filmi hazırlayaraq ictimaiyyətə təqdim edib. Mədəniyyət Mərkəzinin Dostluq Muzeyində Özbəkistanda tanınmış azərbaycanlıların hər biri üçün büst qoyulmuş və onlara dair xüsusi guşə yaradılmışdır.

Əlavə edim ki, mərkəzdə təşkil olunan çoxsaylı kurs və dərnəklərdə yüzlərlə azərbaycanlı, özbək və digər millətlərin uşaq, yeniyetmə və gənclərinə Azərbaycan dili, Azərbaycan tarixi saatı, milli rəqslərimiz, rəsm, toxuculuq dərsləri tədris olunur, milli mədəniyyətimiz geniş təbliğ edilir.

Müsahibimiz bunu da bildirdi ki, mərkəzin layihəsi ilə Özbəkistanda 2023-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş poçt markası buraxılıb, Azərbaycan-Özbəkistan Dostluq Muzeyinin açılışı olub. Muzeydə unikal guşə və eksponatlar yer alıb. Dostluq Muzeyində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun Vətən torpaqlarımızı erməni işğalçılarından azad edilməsinə dair fotostendlər də yerləşdirilib.

Təbliğat işlərinin daha effektiv aparılması məqsədilə Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən Özbəkistanın mədəniyyət müəssisələri, universitetlərində Azərbaycan ocaqları, auditoriyaları, guşələri yaradılıb.

Sonda isə Samir Abbasov qeyd etdi ki, Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzi Azərbaycan-Özbəkistan arasında mədəni əlaqələrlə yanaşı, turizm, elm, təhsil, mətbuat, diaspor, gənclər siyasəti sahəsində də ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsinə dəstək göstərir.

Bu gün Özbəkistanda yaşayan hər bir azərbaycanlı qalib xalqın nümayəndəsi olaraq Azərbaycanımızın son illərdə əldə etdiyi böyük uğurlarla fəxr edir. İstər Vətən müharibəsi zamanı qazandığımız tarixi zəfər, istərsə də ölkəmizin dünyada nüfuzlu ölkəyə çevrilməsi bu ölkədə yaşayan hər bir azərbaycanlını qürurlandırır. Təsadüfi deyil ki, buradakı azərbaycanlılar Vətənimizin qüdrətlənməsi üçün daha səylə çalışır.

İnanırıq ki, yerli azərbaycanlılar bundan sonra da öz fəallıqları ilə Azərbaycan-Özbəkistan arasında dostluq körpüsü yaratmaq, Azərbaycanın təbliği istiqamətində çalışmaqla dövlətlərimizin rifahına öz töhfələrini verəcəklər.

Azərbaycan Mədəniyyət Mərkəzi olaraq bundan sonra da milli həmrəyliyimizin güclənməsində, inkişafında daha yaxından iştirak edəcək, Azərbaycanımıza daha çox töhfə verməyə çalışacağıq.

**✍ Sürəyya QƏDİMƏLİYEVA**

*Təhsil millətin gələcəyidir*

# Bu məktəb vətənpərvər, istedadlı məzunları ilə seçilir



***Azadkənd Ordubad rayonunun qədim tarixə malik yaşayış məntəqələrindən biridir. Gilançayın sahilində yerləşən kəndin əhalisi, əsasən, əkinçilik, heyvandarlıq, bağçılıq, arıçılıq, taxılçılıqla məşğul olur. Son illərdə dövlətimizin böyük qayğısı ilə muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərindən Azadkənd də bəhrələnib. Azadkəndə müasir yol çəkilib, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib. Bütün bunlar kənd sakinlərinin rahat yaşayışına hesablanıb.***

Bu il noyabrın 24-də 3 mərtəbəli Azadkənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi yaşayış məntəqəsi sakinlərinə böyük sevinc yaşadıb. Məktəbdə yaradılan şəraitlə yerindəcə tanış olmaq üçün Azadkəndə yollandıq. Budur, gözəl, yaraşıqlı, müasir olduğu qədər də tarixi-milli ənənələri özündə yaşadan kənd.

Deyərdim, kəndin ən gözəl binası elə buradır. İçəriyə daxil oluram. Əvvəlcə məktəbin direktoru ***Günay Dünyamalıyeva***nı və kollektivi təbrik edirəm. Direktorun dediklərindən:

– Məktəbimiz şəhərlərdəki təhsil ocaqlarından seçilmir. 19 ildir, bu məktəbdə müəllim kimi çalışıram. Bildiyimə görə, 1965-ci ilə qədər burada ibtidai məktəb fəaliyyət göstərib. Həmin il kəndin ilk alitəhsilli ziyalısı mərhum Məmməd Məmmədovun təşəbbüsü və kənd camaatının gücü ilə yeni məktəb binası tikilib, təhsil ocağı fəaliyyətini natamam orta məktəb kimi davam etdirməyə başlayıb. 35 ildən sonra – 2000-ci ildə yeni tikilən məktəb 288 şagird yerlik olub. Lakin bu məktəbdə müasir istilik sistemi, bir sıra texniki avadanlıqlar yox idi. Bu məktəb isə müasir dövrün hər bir avadanlığı ilə təchiz edilib. Təhsil ocağının yeni binasında 16 sinif otağı vardır. Məktəbdə 23 kompüter və 4 elektron lövhə quraşdırılıb, internetə çıxış imkanları yaradılıb. Kitabxanada 4000-dən artıq kitab, şahmat otağı, idman zalı, STEAM otağı, fizika, kimya laboratoriyaları şagirdlərin ixtiyarına verilib. Məktəbimizdə bu gün 22 müəllim 155 şagirdin təhsili ilə məşğul olur. Şagirdlərimiz test-sınaq imtahanlarında, fənn olimpiadalarında, bilik yarışlarında uğur qazanırlar. Bu məktəbin yetirməsi, həm də müəllimi kimi fəxr edirəm ki, bu gün dövlətimiz bizə bu qayğını göstərib. Bu gözəl məktəb binası təhsilə verilən dəyərin nümunəsidir. Çalışacağıq ki, yaradılan şəraitdən səmərəli istifadə edərək dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq, vətənpərvər məzunlar yetişdirək.

Müəllimlərlə də həmsöhbət oluruq. Öyrənirəm ki, tarix müəllimi ***Qədim Sultanov*** 22 ildir, məktəbdə işləyir. Kəndin tarixi haqqında qısa məlumat verən müsahibim dedi: – Bu yaşayış məntəqəsinin tarixi qədimdir. Kəndin adını Manna hökmdarı İranzunun oğlu Azanın adı ilə bağlayırlar. Arxeoloq-alim Bəhlul İbrahimovun kəndimiz haqqında dəyərli araşdırmaları var. Onun arxeoloji tədqiqatları nəticəsində tapılan və üzərində yazılar olan qədim daşlar, saxsı qab nümunələri kəndin qədim tarixindən xəbər verir. Kəndimizdə türk-islam mədəniyyəti abidələrindən olan, XVI-XVII əsrlərə aid körpü vardır. Səfəvi hökmdarı I Şah Abbasın dövründə inşa edilən Aza körpüsü Ordubad rayonundakı Darkənd və Aza kəndlərini birləşdirir. Bu körpü Böyük İpək Yolu üzərində inşa edilmiş, mühüm ticarət-tranzit rolunu oynamışdır. XX əsrin sonlarında güclü sel körpünün qərb tərəfini dağıtmış və körpü 1997 və 2023-cü illərdə əsaslı şəkildə bərpa olunmuşdur. Həmçinin kəndimizdə mövcud olan günbəz, hamam da qədim tariximizdən soraq verir.








Qədim müəllim qeyd edir ki, Azadkənd məktəbi savadlı kadrlar – general, həkim, müəllim, jurnalistlər yetirib: – Kəndimizin 3 şəhidi vardır. Onlar 1994-cü ildə şəhid olmuş Qulam Ələkbərov, Çingiz Vəliyev və 2020-ci il Vətən müharibəsində şəhidliyə ucalmış Namiq Xəlillidir. Onların hər üçü kənd qəbiristanlığında torpağa tapşırılıb. Namiq Xəlilli 1994-cü il təvəllüdlü idi və 2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdı. Azərbaycan Ordusunun baş leytenantı olan Namiq 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda son damla qanınadək vuruşmuş, oktyabrın 23-də Laçın döyüşləri zamanı şəhid olmuşdur. O, ölümündən sonra “Vətən uğrunda”, “Laçının azad olunmasına görə”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib. Məktəbimizdə şəhidlərimizə məxsus ayrıca guşə yaradılıb. Mütəmadi olaraq vətənpərvərlik ruhunda tədbirlər keçirir, şəhidlərimizin ruhu yad edilir.

***Azər Rüstəmli*** 44 günlük Vətən müharibəsinin qazisidir. Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Kiçik leytenant rütbəsi ilə döyüşlərdə, Füzulinin azad olunmasında iştirak edib. Füzuli rayonunun Şükürbəyli kəndində döyüş yoldaşını xilas edərkən sağ ayağından qəlpə yarası alıb. Dövlətin diqqət və qayğısını daim öz üzərində hiss etdiyini deyən Azər müəllim məktəbdə hərbi hazırlıq fənnini tədris edir. Onun dediklərindən: – Dövlətin qayğısı ilə ölkəmizdə şagirdlərin yaxşı oxuması, Vətənə layiq övlad kimi böyüməsi üçün yeni təhsil ocaqları tikilib istifadəyə verilir. Bunlardan biri də fəaliyyət göstərdiyim məktəbdir. Burada fənlərin tədrisi üçün tədris ləvazimatları ilə təchiz olunmuş otaqlar, laboratoriyalar yaradılıb. Şagirdlərin hərb peşəsinə marağını artırmaq, vətənpərvərlik ruhunda tərbiyəsi üçün hərbi kabinə istifadəyə verilib. Bu kabinədə şagirdlərimiz hərb peşəsinin sirlərinə dərindən yiyələnirlər. Ötən ilin noyabr ayında avtomobillə təmin edildiyini, müalicələrinin dövlət tərəfindən qarşılandığını deyən Azər müəllim şəhidlərimizə rəhmət, qazilərimizə şəfa dilədi. Azadkənddə göstərilən belə qayğı üçün minnətdarlığını bildirdi.

35 ildir, məktəbdə çalışan, Azərbaycan dili və ədəbiyyat fənnini tədris edən ***Əhrəman Əsgərov***, riyaziyyat-informatika müəllimi, STEAM dərslərini tədris edən ***Güney İsaqova*** bu tədris ocağının rayonda sayılıb-seçilən məktəblərdən biri olduğunu bildirdilər, yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq etdilər. Güney müəllim məktəbdə STEAM kabinəsinin yaradılmasının şagirdlərin müxtəlif bacarıq və qabiliyyətlərinin üzə çıxarılmasında mühüm rol oynadığını vurğuladı.

Məktəbin əlaçı şagirdlərindən XI sinifdə təhsil alan ***Jalə Hüseynzadə*** və X sinif şagirdi ***Sədəf Bayramlı*** isə qeyd etdilər ki, yeni məktəb onlara verilən ən gözəl hədiyyədir. Onlar bu məktəbə layiq olmağa çalışacaqlarını, daha da yaxşı oxuyaraq ali məktəbə qəbul olunacaqlarını, daim məktəbin adını uca edəcəklərini bildirdilər.

*Məktəbdə hər kəsin ürəyi dolu idi. Hamı minnətdarlıq hisslərini ifadə edirdi. Biz də yeni məktəbin fəaliyyətinə uğurlar arzuladıq. Ümummilli Liderimiz Heydər Əliyevin dediyi* ***“Təhsil millətin gələcəyidir”*** *ifadəsini özfəaliyyətində əsas tutan kollektivin müasir, hər cür şərait yaradılan yeni məktəbdə yeni uğurlar qazanacağına əminik.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Növbəti ağacəkmə aksiyası



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, Babək Rayon İcra Hakimiyyəti və "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti əməkdaşlarının, həmçinin ekokönüllülərin iştirakı ilə Əshabi-kəhf ziyarətgahına gedən yolun ətrafında növbəti dəfə ağac əkilib.

Keçirilən aksiya zamanı ərazidə iqlim şəraitinə uyğun 700 badam ağacı əkilib, yaşıllıq zolağı salınıb.

Ağacəkmə tədbirlərinin keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Humanitar tibbi aksiya keçirilib



Naxçıvan Muxtar Respublika Xəstəxanasının 18 nəfərdən ibarət həkim briqadası 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Məhəmməd Füzuli adına Ordubad internat tam orta məktəbində humanitar tibbi aksiya təşkil edib.

Aksiyada peşəkar həkim heyəti uşaqları müayinə edib, onlara ambulator müalicə – profilaktik xidmətlər göstərib. Müayinələr zamanı məktəbin yataqxanasında yaşayan şagirdlər müxtəlif tibbi müayinələrdən keçiblər. Xəstəlik aşkar olunan uşaqlara müalicələr yazılıb, 10 uşaq daha ətraflı müayinə və müalicə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət olunub.

Humanitar tibbi aksiya çərçivəsində 52 şagird şəxsi təmizlik və gündəlik gigiyenik istehlak məhsulları ilə təmin edilib, isti qış geyimləri və ayaqqabılar, eləcə də digər hədiyyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Tarixi Azərbaycan torpaqları*

## Onları ölümdən kələğayı qurtardı...

*Köksündə xalqımızın tarixini, kimliyini, milli-mənəvi dəyərlərini yaşadan, Eneolit dövr mədəniyyətimizin beşiyi Kültəpə kəndindəyik. Qərbi Azərbaycandan olan soydaşlarımızın sorağı ilə qədəm qoymuşuq bu yurda, bu torpağa. Şabanovlar ailəsinin qonağıyıq Kültəpədə.*

Kənd sakini ***Oruc Şabanov*** atasının başına gələn bir hadisəni danışır: – Atam Cavad Şabanov 1895-ci ildə qədim yurd yerimiz Dərələyəzin Sallı kəndində dünyaya göz açıb. Uşaqlıq illəri həmin torpaqlarda malheyvan, qoyun-quzu otarmaqla, əkinçiliklə, maldarlıqla keçib. Dünyadan köçən bir günədək elə hey dədə-baba torpaqlarından söhbət salar, o yerlərin həsrətindən könlünü ovutmaq üçün xatirələrini bölüşərdi bizimlə. Danışdığı bir hadisə isə hər zaman qulağımda səslənir, yaddaşımdan silinmir. Atam deyirdi ki, 1918-20-ci illərdə ermənilərin xalqımıza qarşı törətdiyi qırğınlar, təxribatlar, deportasiya siyasəti onların ailəsindən də yan ötmədi: – Mənfurlar bir çox həmyerlimizlə bərabər məni və əmini də girov götürərək yuxarı kəndlərdən birinə apardılar. Orada bizimlə qul kimi rəftar etməyə, özlərinə rəvac görmədikləri işlərdə işlətməyə başladılar. Həmin kənddə mən bir erməninin tövləsində mal-heyvana, atlara baxır, elə həmin tövlədə natəmiz yerdə yatmağa məcbur edilirdim. Günlər bir-birindən çətin, dözülməz keçirdi mənimçün. Bir gün qulluq etdiyim atlardan birinin cilovundan yapışıb yaxınlıqdakı kəhrizdə suvarmağa apardım. Suyun başında əlində səhəng tək-tənha dayanan bir qadına rast gəldim. Xanım məni görcək sanki uzun illər öncə itirdiyi doğmasını tapmış kimi sevindi və elə həmin an dedi ki, mən səni tanıyıram, biz eyni kənddənik. Özünü nişan verdikdən sonra söylədi ki, Cavad, məni də buraya əsir kimi gətiriblər, işgəncə verirlər, bu yaramazlar bizi işlədib-işlədib axırda da canımıza qəsd edəcəklər. Bir yolun tap, qaçaq gedək doğma kəndimiz Sallıya...



Oruc Şabanov sanki hadisəni yaşayırmış kimi həyəcanlı şəkildə söhbətinə davam edir: – Atam bir qədər fikirləşdikdən sonra qadına "sabah bu vaxt burada ol, atı da gətirim bir yerdə qaçaq, gerisi də nə ola-ola, təvəkkül Allaha", – deyir. Dansıdıqları kimi də edirlər. Ertəsi gün atam kəhrizin yanında qadını atın belinə götürür, qaçırlar. Hadisəni başa düşən ətrafdakı ermənilər arxalarınca güllə yağdırmağa başlayırlar. Bu zaman əsən küləyin, çapan atın təsirindən qadının başındakı kələğayı yellənərək düşmənin hədəfi düzgün nişan almasına maneçilik törədir. Qədim milli geyimimizin kənarları deşik-deşik olsa da, atamla həmkəndlisi qadın ölümdən xilas olur. Sallıya gələn atamgil bir neçə gün kənddə qaldıqdan sonra gəlmə ermənilərin təcavüzündən xilas olmaq üçün ailəlikcə məcburi şəkildə dağlardan-daşlardan keçərək Payız kəndi istiqamətində Naxçıvana pənah gətirirlər. Əvvəlcə Yeniyolda (indiki Məmmədrza Dizə kəndində) məskunlaşırlar. Buraya gəlməkdə məqsədləri isə öncədən bəlli imiş. Belə ki, atamın dediyinə görə, həmin dövrdə o kənddə Məmmədrza adında bir bəy yaşayırmış. Həmin bəy ermənilərin təcavüzündən qorunmaq, işğalçıların hücumlarını dəf etmək məqsədilə 25 nəfər atlıdan ibarət könüllü dəstə, Dizə taboru yaratmışdı (Haşiyə: Mənbələrdə kəndin indiki adının etimologiyası barədə əsaslandırılmış fakta rast gəlmədiyimiz üçün deyə bilərik ki, böyük ehtimalla Məmmədrza Dizə toponimi məhz elə həmin bəyin, taborun adından yaranıb). Atamgil də o vaxt bunu eşidib-bildiyi üçün ümid yeri kimi buraya üz tuturlar. Lakin kənddə qalmağa evləri olmadığı üçün çətinliklə üzləşirlər. Çıxış yolu kimi qayaların dik hissələrini yarıb, meşədən də odun yığaraq özlərinə mağara formasında sığınacaq düzəldirlər. Sonralar Kültəpə kəndində boş evlər taparaq köçüb burada yaşayırlar...



Oruc Şabanov onu da bildirir ki, Qərbi Azərbaycan torpağı neçə-neçə saz-söz adamları, şairlər, yazıçılar, sənətkarlar yetirib. Dərələyəzin Hors, Qabaqlı, Qaraqaya kəndləri kimi Sallı da aşıqlar yurdu sayılıb: – Atam Dərələyəz aşıq mühitinin ustadı aşıq Cəlillə yaxın dost olub, 1918-ci ildə Naxçıvana da bir yerdə gəliblər. Aşıq Cəlil də Məmmədrza Dizə kəndində yaşayıb, orada dünyasını dəyişib, torpağa tapşırılıb. Elə ata-baba yadigarı kimi mənim də uşaqlıqdan saza-sözə böyük hörmətim olub. Bir neçə şeirlər kitabım da işıq üzü görüb. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandanımızın siyasi iradəsi, qətiyyəti sayəsində tezliklə soydaşlarımızın Qərbi Azərbaycan torpaqlarına qayıtması ümidi ilə fikrimi qədim, əzəli yurd yerimizə həsr etdiyim "Dərələyəz bizimkidir" şeirindən iki bəndlə yekunlaşdırıram:

*Bax Dərələyəzdə yaşayan atam,*
*Orada açılan gül bizimkidir.*
*Al-əlvan çəmənlər, yaşıl meşələr,*
*O dağlar, dərələr, çöl bizimkidir.*

**Nail ƏSGƏROV**

## "Freedom House" özü azad olmayıb azadlıqdan dəm vurur

*Ölkəmiz öz ərazi bütövlüyünü təmin etməklə yanaşı, həm tarixi ədaləti, həm də beynəlxalq hüququ təmin etdi. BMT-nin kağız üzərində illərlə qalan qətnamələrini icra etdi.*

Təəssüflər olsun ki, bu uğurlar, tarixi ədalət, cənab Prezidentin dünyada artan nüfuzu bir çox dövlətləri və onların təsiri ilə bəzi qurumları ciddi narahat edir. Elə bu yaxınlarda "Freedom House" da 2023-cü il üzrə hesabatlarının ilkin variantlarını ictimailəşdirməyə başlayıb. "Qlobal demokratiya və azadlıqlar indeksi", "İnternet azadlığı indeksi" və digər bu kimi hesabatlar artıq təşkilatın veb-səhifəsində yerləşdirilib. Ayrı-ayrı ölkələrin "azad", "yarım azad" və "qeyri-azad" kateqoriyalar üzrə təsnifatlaşdırıldığı bu hesabatlar hər il olduğu kimi, bu dəfə də ciddi narazılıq yaradıb. Əslində, hər il olduğu kimi, bu il də yayımlanan məlumatlar, təşkilatın apardığı "tədqiqatlar", hazırladığı "təhlillər" elmi fakta deyil, siyasi motivlərə köklənib.

2023-cü ildə "Freedom House" tərəfindən hazırlanmış "İnternet azadlığı indeksi"ndə 100 ölkə arasında 39 ölkə qeyri-azad, 29 ölkə yarım azad, 31 ölkə isə tam azad ölkə kimi göstərilib. Maraqlı məqam isə odur ki, ABŞ-ın maraqları ilə razılaşmayan dövlətlərin hamısı "qeyri-azad ölkə" indeksi üzrə qiymətləndirilib.

Hesabatın hazırlanmasında ABŞ-ın təsiri həm də özünü son illər Azərbaycan və Türkiyə liderlərinin apardığı uğurlu siyasətdən, Türk Dövlətləri Birliyinin möhkəmləndirilməsində əldə olunan uğurlardan qorxuya düşməsində və həmin ölkələri də qarayaxma kampaniyasına qatmasında görünür.

Əslində, keçmişə nəzər salsaq, görərik ki, bu təşkilat Azərbaycanın öz müstəqilliyini elan etməsindən başlayaraq bu günə qədər heç vaxt ölkəmiz barədə obyektiv rəy verməyib. ABŞ necə ki, qərəzli mövqe nümayiş etdirib, "Freedom House" da bu illər ərzində hazırladığı hesabatlarda qərəzli olub. ABŞ-ın siyasi mərkəzləri ilə eyni amala xidmət etdiyini göstərib. Əslində, bu faktlar qurumun özünün azad olmadığının göstəricisidir.

Qısası, beynəlxalq təşkilatın özü obyektiv olmalı, dürüst hesabatlar hazırlamalı, beynəlxalq hüquqa hörmət etməli, insan haqları, azadlıqlar uğrunda çalışmalıdır. Lakin gördüyümüz kimi, "Freedom House" özü azad və müstəqil deyil. Ona görə də hazırladığı təxribat xarakterli hesabatlar hər il olduğu kimi, bu il də həqiqəti əks etdirmir və siyasi ambisiyalara xidmət edir.

Görünən reallıq ondan ibarətdir ki, bu gün dünya ölkələrinin liderləri cənab İlham Əliyevi dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq etibarlı tərəfdaş kimi qəbul edirlər. Bu da bir daha onu deməyə əsas verir ki, cənab İlham Əliyev qlobal təşəbbüsləri ilə Avrasiyanın enerji siyasətinə, bölgənin, regionun davamlı inkişafına mühüm töhfələr verir.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarixçi-alim***

## Fənn müsabiqəsində 16 mindən artıq şagird iştirak edib

Dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş VIII-XI sinif şagirdləri arasında Azərbaycan dili, riyaziyyat, xarici dil fənlərindən fənn müsabiqəsi keçirilib.



Müsabiqə Naxçıvan şəhərində 20, Şərur rayonunda 8, Babək rayonunda 5, Ordubad rayonunda 4, Culfa rayonunda 11, Kəngərli rayonunda 2, Şahbuz rayonunda 6, Sədərək rayonunda isə 5 olmaqla, ümumilikdə, 61 mərkəzdə təşkil olunub və 16 mindən artıq şagird iştirak edib. Müsabiqədə şagirdlərə Azərbaycan dilindən, riyaziyyat və xarici dil fənlərinin hər birindən 25 olmaqla, ümumilikdə, 75 sual təqdim olunub, sualların cavablandırılması üçün 180 dəqiqə vaxt ayrılıb.

Şagirdlər müsabiqədəki nəticələri ilə bağlı məlumatları müsabiqədən 3 gün sonra sual kitabçalarının üzərində yerləşdirilən "QR" kodunu mobil telefon vasitəsilə oxutmaqla öyrənə biləcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## İdmançılar təltif olunub

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini Məcid Seyidov noyabr ayında ölkə və beynəlxalq miqyaslı idman yarışlarında uğurlu nəticələrə nail olmuş idmançılarla görüşüb, onları təltif edib.



Əldə etdikləri nailiyyətlər münasibətilə idmançıları təbrik edən Məcid Seyidov görüşün məqsədi barədə danışıb, onların hazırlıq səviyyəsi və gözləntiləri ilə maraqlanıb. Nazir müavini ölkəmizdə idmana göstərilən dövlət qayğısını xüsusi vurğulayaraq bildirib ki, son zamanlar məşqçi və idmançıların ölkə miqyaslı yarışlarda iştirakının təmin edilməsinə diqqət artırılıb. Təmsilçilərimizin yarışla bağlı xərclərinin qarşılanması üçün büdcədən vəsait ayrılır, onlara dəstək göstərilir. Məqsəd dövlət dəstəyi sayəsində idmançıların karyera yüksəlişinə töhfə verməkdir.

Sonda görüşdə iştirak edən idmançılardan şahmatçılar – FIDE ustası Nəsrin Babayeva, Yasin Əzimov, Mirsaleh Seyidli, bədii gimnast Təranə Əlizadə nazirliyin Fəxri fərmanı ilə təltif olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Elanlar

Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 18 dekabr 2023-cü il tarixdən 12 yanvar 2024-cü il tarixədək, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin 15 faiz əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satış qiyməti 23163.3 manat, Kəngərli Rayon İdarəsinin 15 faiz əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satış qiyməti 4620.0 manat və Ordubad Rayon İdarəsinin 15 faiz əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satış qiyməti 30815.55 manat müəyyən olunaraq özəlləşdirilməsi üçün açıq hərraca çıxarılacaqdır.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38.***

***

Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 18 dekabr 2023-cü il tarixdən 12 yanvar 2024-cü il tarixədək, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin əmlakının 85 faizinin start satış qiyməti müəyyən olunaraq özəlləşdirilməsi üçün açıq hərraca çıxarılacaqdır.

| S/s | Obyektin adı | Ünvanı | Obyektin 85 faizinin tam dəyəri | Obyektin 85 faizinin satış qiyməti | Behin həcmi 10 faiz |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsi | Şahbuz şəhəri | 74658.05 | 74658.05 | 7465.80 |

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

**Əlaqə telefonu: 545-01-38.**

### *İtmişdir*

Şərur rayonunun Kürçülü kənd sakini Əliyev Süleyman Məşədiəli oğlunun adına olan JN-85 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 733